## AQTA ilə əməkdaşlıq fəaliyyətləri

AQTA EPPO üzrə ölkəmizin rəsmi əlaqələndirici qurumu olaraq bu platformada: beynəlxalq fitosanitar standartların hazırlanmasında iştirak edir, məlumat mübadiləsini həyata keçirir, milli fitosanitar sistemin beynəlxalq tələblərə uyğunlaşdırılmasına töhfə verir.

- **2026-cı il 23-26 iyun** tarixlərində Gürcüstanın Tbilisi şəhərində keçirilən Avropa və Aralıq Dənizi Bitki Mühafizəsi Təşkilatının (EPPO) Bitki Sanitariya Qaydaları üzrə İşçi Qrupunun 64-cü iclasında Agentlik Aparatının Bitki sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri Elmar Allahverdiyev iştirak etmişdir.
- **2026-cı il 9-11 iyun** tarixlərində Fransanın Paris şəhərində keçirilən Bitki Mühafizəsi Vasitələri (PPP) üzrə EPPO İşçi Qrupunun 56-cı iclasında Aparatının Bitki sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdir müavini - Bitki mühafizə vasitələri və aqrokimyəvi maddələrin tənzimlənməsi sektorunun müdiri Cavidan Quliyev iştirak etmişdir.
- **2026-cı il 21-23 aprel** tarixlərində Avstriyanın Vyana şəhərində keçirilən "Avropada meşələrin qorunması: Agrilus cinsli (Buprestidae) böcəklərin yayılma riskləri” mövzusunda konfransda Agentlik Aparatının Bitki sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin Bitki sağlamlığının tənzimlənməsi sektorunun müdiri Gülnar Qəhrəmanova iştirak etmişdir.

- **2025-ci il 23-24 sentyabr** tarixlərində Fransa Respublikasının Paris şəhərində keçirilən Bitki Karantini və Mühafizəsi üzrə Avropa və Aralıq Dənizi Təşkilatının (EPPO) Şurasının 75-ci sessiyasında Agentlik Aparatının Bitki sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin Bitki sağlamlığı üzrə risklərin və böhran vəziyyətlərinin idarə edilməsi sektorunun müdiri Vəfa Rüstəmova iştirak etmişdir.
- **2024-cü il 23 sentyabr** tarixində Bakıda EPPO İcraiyyə Komitəsinin iclası, **24-25 sentyabr** tarixlərində isə EPPO Şurasının 74-cü sessiyası keçirilmişdir. Agentlik və EPPO-nun birgə təşkilatçılığı ilə təşkil edilən tədbirdə təşkilata üzv dövlətlərdən olan nümayəndələr iştirak etmişdir. Sessiyada təşkilatın 5 il müddətinə seçilən baş direktoru vəzifəsinə seçkilər keçirilmiş və yeni Baş direktoru Olqa Lavrentjeva seçilmişdir.
- 74-cü sessiya çərçivəsində EPPO-nun yeni seçilmiş Baş direktoru Olqa Lavrentjeva və EPPO Şurasının digər iştirakçılarının AQTİ-yə səfəri təşkil olunmuşdur. Qonaqlar İnstitutun Kompleks Tədqiqatlar, Mərkəzi Fitosanitar və Milli Referens laboratoriyalarına baxış keçirmiş, laborator sınaqların həyata keçirildiyi otaqlara baş çəkmiş, sınaqların aparılması prosesini izləmiş, cihaz və avadanlıqlara baxmışdır. Eləcə də bitki mənşəli qida məhsullarının təhlükəsizlik və keyfiyyət göstəriciləri üzrə həyata keçirilən laborator müayinə üsulları ilə tanış olmuş, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparmışdırlar.